DOI:10.30546/gdu.2023.312-315

# DİL VƏ DEMOKTATİYA

UOT:811

*Əliyeva Nəsibə İslam qızı, Quliyeva Tahirə Qoca qızı,*
*Adıgözəlova Nübubət Nizami qızı*

*Gəncə Dövlət Universiteti*
*Nasibaaliyeva@yandex.ru Quliyevatahire001@gmail.ru*
*Adigozelovanububet@gmail.com*

**Xülasə**: *Məqalə dil və demokratiyanın vəhdət probleminə, siyasi mətnə müasir yanaşmalara həsr olunub.Məqalədə həmçinin göstərilir ki, siyasi mətnin linqvistik təhlili ilə yanaşı, nitqdə sətir altında yatan ideoloji əsasları da təhlil etmək vacibdir. Aparılan linqvistik təhlilin nəticələri bunu deməyə əsas verir. Dil və demokratiya fundamental səviyyədə sıx bağlıdır. Siyasət sözlə savaşdır, başqa sözlə desək, dilsiz siyasət idarə olunmur. Hər dövrdə dil problemi ilə üzləşilmişdir. Bununla belə, dil özlüyündə neytraldır, nə siyasi, nə də sosial deyil.*

**Acar sözlər:** demokratiya, əlaqələr, mədəniyyət. cəmiyyət
**Key words:** democracy, connection, culture, society
**Ключевые слова**: демократии, связи, култура, общества

Demokratiya insan şəxsiyyətinə hörmətdir. Demokratiyanın əsasını şəxsiyyətin azadlıg hüququ, insanın şəxsiyyətinə hörmət təşkil edir. Demokratiya dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, ictimai vəziyyətindən, mülki vəziyyətindən asılı olmayaraq bütün bərabərliyini nəzərdə tutur.

Demokratiya anlayışının nəyi ifadə etdiyini müəyyən etmək lazımdır. Demokratiyanın qəti və dəqiq tərifi verilməyib. Bir tərifə görə müasir siyasi demokratiya idarə olunanların elə idarəetmə fomasıdır ki, burada vətəndaşların seçilmiş nümayəndələri rəqabət və işbirliyi yolu ilə dolayı olaraq ictimai sahədə iştirak edirlər.

Demokratiyanın reallaşdırma vasitələri dəyişdikcə və inkişaf etdikcə demokratiyanın tərifi də dəyisəcək. Normativ demokratiya nəzəriyyəsinə görə demoktatiyanı tam mənasıyla təmin edilə bilməsi üçün alınan qərarların xalqın hamısının məmnun edilməsi lazımdır.

Müasir sivilizasiyanın inkişafının aparıcı meyllərindən biri demokratiya-nın getdikçə tərəqqi etməsidir. İnsanlar hazırki şəraitdə dövlətin təkcə müşahidəçisi olaraq qalmır, onlar siyasi sistemin getdikcə fəal üzvünə çevrilərək mühüm qərarların qəbul edilməsində yaxından iştirak etmək imkanı əldə edirlər. Ölkə daxilində əhəmiyyətli dəyişikliklər baş verir. Bir tərəfdən o kütləviləşir, vaxtilə cəmiyyətin secmə üzvlərinin peşəsi oldugu halda indi əhalinin bütün təbəqələrini əhatə edir. Digər tərəfdən isə, siyasət cəmiyyət həyatının bütün sahələrinə getdikcə daha geniş nüfuz edərək iqtisadi, sosial, mənəvi inkişafın güclü amilinə çevrilir.

Demokratiya ilə dil ümumilikdə bir vəhdət təşkil edir. Aristotel ilk dəfə olaraq sosial vahid və ya dövlətin fəaliyyətində linqvistik kommunikasiyanın əhəmiyyətini tanımışdır. Siyasi fərqlər həmişə dildə fərqlər kimi yaranmış, siyasi mübarizələr isə, hər zaman hakim dil üzərində mübarizə olmuşdur. ( 3. s. 120).

Linqvistikaya müasir yanaşma ondan ibarətdir ki, dil sosial dünyanın formalaşdığı mərkəzi vasitədir. Hər bir fərd özünün unikal dəyərlərini və inamlarını dil vasitəsi ifadə edərək müəyyən bir sosial qrupa və ya cəmiyyətə məxsus olur. Bu yolla , dil praktik olaraq sivilizasiya ilə, mədəniyyətlə, mədəniyyət isə özlüyündə hər hansı bir spesifik cəmiyyətdə siyasi təcrübə ilə bağlı olur. Dil hər hansı bir şəxs haqqında müəyyən informasiyanı aşkara çıxaran siyasi akt hesab oluna bilər. Dil və millətlər qarşılıqlı olaraq bir-birini yaradan miflərdir. Başqa sözlə desək, dil millətlər, sosial qruplar və hətta şəxslər arasında fiziki və coğrafi sərhədləri müəyyən edir. Buna baxmayaraq, Dil öz- özlüyündə neytraldır, nə siyasidir. nə də sosial. Deməli dil və siyasətin tədqiqi, sosial vahidlərin fəaliyyətində linqvistik

DOI:10.30546/gdu.2023.312-315

ünsiyyətin rolunu dərk etməyə və sosial vahidlərin dilin özünü necə formalaşdırmasına yönəlmişdir.

Aristotelin baxışlarına əsasən, dil sosial funksiyaları həyata keçirmək üçün təkamül etmişdir. Onun sosial funksiyalar adlandırdığı termin əslində bizim bu günkü siyasət kimi başa düşdüyümüz anlayışa uyğun gəlir. Buradan aydın olur ki, siyasi fəaliyyət dildən istifadə etmədən mövcud deyildir. (2, s. 250). Aristotel "nitq"dedikdə nəyi nəzərdə tuturdu? Aristotel növbəti ideya-sında nitqi səsdən fərqləndirərkən sonuncunu bütün heyvanlara aid olduğunu, onlarda nitqin həzz və əzab hisslərini bildirməyə xidmət etdiyini bildirirdi. Burada insanın nitqi isə birmənalı olaraq fərqlənir. Aristotel bunu teleoloji terminlərlə , yaxud da ki, müasir dilçilikdə funksional adlandıra bilən termin kimi verirdi. Nitq digər tərəfdən də nəyin faydalı, nəyin zərərli, eyni zamanda nəyin ədalətli, nəyin ədalətsiz olduğunu göstərməyə xidmət edir. İnsan və digər heyvanlar araslnda real fərq ondan ibarətdir ki, yalnız insanlar xeyir və şər, ədalət və ədalətsizlik və s. kimi təsəvvürlərə malikdir.

Demokratiyanın reallaşması vasitələri dəyişdikcə və inkişaf etdikcə demokratiyanın tərifi də dəyişəcək. Bu idarə formasının birbaşa xalq tərəfindən olmasa da xalq üçün olması şərtdir. Demokratik adətlərə gəldikdə isə onların olmadığı cəmiyyətdə qanunların təkbaşına olmayacağını qeyd etməliyik. Bəşəriyyətin getdikcə artmaqda olan müxtəlifliyi, müxtəlif mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin intensivliyi demokratik faktorun xüsusi dəyər kəsb etdiyini göstərir və onun inkişaf etdirməsini şərtləndirir. Məhz demokratiya bəşəriyyətin gələcək münaqişəsiz inkişaf yolunun əsas təməli olmaqla konsensus və tolerantlıq mühitinin formalaşmasına inkan yaradır. Dialoq isə sivilizasiya və mədəniyyətlərin açıqlığını tələb edir, acıq cəmiyyət ideyası isə sosial həyatın demokratik təşkili şəraitində təşəkkül tapır və möhkəmlənir. Bu gün biz tolerantlıqdan multikultural dəyərlərdən danışırıqsa, burada demoktatiyanın rolunu qeyd etməliyik. Çünki təcrübə göstərir ki, sivilizasiyanın inkişafını ictimai quruculuğun və təkmilləşmənin ən yaxşı forması demokratiyadır. (4, S. 55) Dil və siyasət anlayışları arasında müəyyən terminoloji fərqləri P. Çil-tonun təklif etdiyi kimi nəzərə alaraq nəzərdən keçirməyi daha məqsədəuyğun hesab edirik. Belə ki, alim qeyd edir ki, dil insanların bütün cəmiyyətlərdə ünsiyyət qurduğu universal bacarığı, siyasəti isə idarəetmə sənəti kimi tərif edir. Beləliklə, bu tərif dili müxtəlif situasiyalarda qarşılıqlı əlaqədə olmaq və ya danışıqlar aparmaq və yaxud da müxtəlif təşkilatda şərti olaraq siyasi mühit kimi tanımaqla nəzərdən keçirir.

Siyasi mətn nitqinin təhlili linqvistikada olduqca yeni bir sahədir. Siyasi mətn analitiklərin əsas vəzifəsi, bütövlükdə siyasi arenanın söhbət və mətni olan siyasi nitqin arxasında duran gizli hakimiyyət və ideoloji strukturları ifşa etmək olmuşdur. Ümumiyyətlə, siyasi nitq siyasi cəmiyyətin və qrupun təşkil olunmasında həlledici olan bir cəmiyyətin siyasi idealarını, inam və təcrübələrini müzakirə edən mətnlərlə əlaqələndirir. Beləliklə, siyasi mətnlər siyasi janrlar çoxluğundan inkişaf edir. Buraya daxildir müqavilələr, çıxışlar, seçki kampaniyaları, konqres, siyasi partiyalar, parlament debatları, qəzetlərdə redaksiyalar və şərhlər, siyasətin və ya siyasi xadimin şərəfinə mətbuat konfransı.

Siyasət və dil arasında əlaqə nədən ibarətdir? Dil və siyasət arasında əlaqə, həmçinin dilin siyasətə təsiri minilliklər boyu müzakirə mövzusuna çevrilsə də, onlar arasında mövcud münasibətlərin tədqiqinə dair maraq son 70 il ərzində əhəmiyyətli dərəcədə artmışdır. Qərbin ənənəvi siyasi təfəkküründə dərin iz buraxmış belə bir yanaşma mövcuddur ki, əslində dil və siyasət bir- birilə fundamental səviyyədə sıx bağlılıq təşkil edir. Məsələn, Aristotel bir zamanlar xüsusilə vurğulamışdır ki , insanlar siyasi heyvanlardır və özlərinin siyasi niyyətlərinə dili mənimsəmək və ondan istifadə etməklə nail ola bilərlər. ( 4. Səh 50)

Müasir cəmiyyətin təşkili və fəaliyyət mexanizmində dil olduqca mühüm rol oynayır. Hələ ən qədim zamanlardan bəri böyük alimlər və mütəfəkkirlər dərk etməyə başlamışlar ki,

DOI:10.30546/gdu.2023.312-315

siyasət sadəcə olaraq incə sənət deyil o, habelə sosial varlıq kimi insanın özünü təsdiqinin mühüm bir ünsürüdür. Aristotelin məşhur "siyasətdən kənar cəmiyyət yoxdur" ifadəsi nəinki tarixi təcrübədə özünü doğrultmuş, hətta daha aktual məna kəsb etmişdir. Müasir dünya antik dövrün görkəmli zəka sahibinin sözləri indi "siyasətdən kənar insan yoxdur" ifadəsi kimi işlətməyə tam əsas verir.

P. Çiltonun əsərində siyasi diskurs insan fəaliyyətinin mürəkkəb tədqi-qat sahəsi kimi təsvir olunur. Başqa sözlə siyasət dilsiz idarə oluna bilməz. Sosial fəaliyyətin bütün sahələrində olduğu kimi siyasətin də özünəməxsus dili vardır. Bu dil siyasi dəyərlərin, ideyaların və siyasi aktların başa düşülməsində həlledici rol oynayır. Müəllif haqlı olaraq israr edir ki, siyasi mətnləri linqistik təhlil edərkən ən vacib amil politoloqların ideoloji mövqeyinin dildə necə əks olunması və oxucunun həmin mövqeyə olan reaksiyasıdr. Siyasi fikrin əmələ gəlməsində dil sadəcə olaraq qazanılmış bilik deyil, eyni zamanda ,yeni biliklər əldə etmə vasitəsidir.( 2 .səh.252)

Siyasi mətnlər cəmiyyətdə siyasətin tarixi və mədəni təkamülünün nəticəsi olan hər bir siyasətçinin ideologiyasını əks etdirir. Yüksək mədəniyyətə yönələn siyasi mətnlərə siyasi, iqtisadi və hüquqi həyatın aspektləri daxildir. Bu da o deməkdir ki, siyasi mətnlərin təhlili, sadəcə olaraq mətnlərdə linqvistik xüsusiyyətlərin təhlili deyil, eyni zamanda yazılı və şifahi diskursda əsas ideologiyaların təhlilidir. Hər bir mərhələdə siyasətin dilciliyin müəyyən aspektlərdə yaranmış sualları ilə qarşılaşdığının şahidi ola bilərik. Siyasi və ictimai faktorlar dilin rolunu etiraf edirlər, ona görə ki. onlar yaxşı başa düşürlər ki, dilin bütün aspektlərindən istifadə çox gözəl effektlər verir, ona görə də siyasət geniş miqyasda dilin tətbiqidir, hətta əgər bunun əksi həqiqətə uyğun gəlmirsə belə, dilin hər cür tətbiqi siyasət deyildir. Burada əsas məqam ondan ibarətdir ki,dilin siyasi həyat üçün əhəmiyyətli olduğunu inandırmağa çalışmaq və bu baxımdan dilin tətbiqinə daha dərin yanaşmaq tələb olunur. Biz bu nəticəyə gələ bilərik ki,əslində dil və siyasət bir-birilə fundamental səviyyədə sıx bağlılıq təşkil edir. Siyasət sözlü müharibədir, başqa sözlə ifadə etsək siyasət dilsiz idarə oluna bilməz. Bu məhvum cəmiyyətin mövcud olduğu bütün dövrlərdə dil problemləri olmuşdur.Butun cəmiyyət bu problemlərlə daima üzləşmişdir.

Təcrübə göstərir ki, beynəlxalq münasıbətlərin və dünya siyasətinin müasir strukturu və faktorları elə bir vəziyyətə gəlib ki, çətin kı, təkcə dövlətlərarası rəsmi münasibətləri, xarici siyasət idarələrinin fəaliyyətini öyrənməklə müasir dünya siyasəti beynəlxalq münasibətləri qəbul etmək mümkün olsun. Dünya siyasətində müasir beynəlxalq münasibətlər və demokratiya çox mürəkkəb bir sistemdir. Müasir münasibətlərin yaranmasında mühüm rol oynayan faktorlardan biri də kütləvi informasiya vasitələridir. Regional və beynəlxalq əlaqələrin xüsusilə dünya ictmaiyyətinin rəyinə təsir baxımından kütləvi informasiya vasitələrinin rolu tədqiqatçılar tərəfindən cox yüksək səviyyədə qiymətləndirilir.

Müasir dünya nizamının və beynəlxalq münasibətlərin əsas tenden-siyasından birinin demokratikləşmə təşkil edir. Bu prosesin əsas mahiyyəti dünyada və beynəlxalq münasibətlər sistemində demokratik dövlətlərin sayının və rolunun artırılması demoktatiya və insan hüquqları ilə məşğul olan qeyri-hökumət təşkilatlarının yaradılması və onların istifadə edilməsindən ibarətdir. (1.səh.95)

Demokratiya və liberazim ideyalarının bütün dünyada geniş yayılması həm də onu sübut edir ki, bəşəriyyət yalnız demokratiyanın mövcudluğu şəraitində ümumi dil tapmağa , anlaşılan dildə təşkil olunan bir dialoqa ehtiyacı olmaq deməkdir. Məhz bərabərhüquqlu subyektlərin, fərdlərin qrupların, dövlətlərin, mədəniyyətlərin, sivilzasiyaların əsas ünsiyyət forması və üsulu olan dialoq demokratik prinsiplərə söykənməklə qarşılıqlı anlaşmaya nail olmağa və qlobal məsələlərin həllində ümumi bir razılıq əldə etməyə imkan yaradır. Sadəcə olaraq, bu dialoqlar xalqlar arasında siyasi və mədəni əlaqələrə, həm də ölkələrin daxili siyasi

DOI:10.30546/gdu.2023.312-315

həyatına müsbət təsir göstərmək, xalqın demokratik dəyişiliklərə həvəsləndirmək, müsbət təcrübədən yararlanmaq imkanı yaradır.

***Ədəbiyyat***

1.Həsənov. Ə.M.Müasir Beynəlxalq Münasibətlər və Azərbaycan xarici siyasəti. Bakı 2005.
2. Chilton. P. Analysing Political Discourse. London and Nyu York. 2004.
3.Joseph. E. J. Language and Politics. United Kingdom. 2004.
4.Nichola Woods. Describing Discourse. London Hodder Education 2006.

## ЯЗЫК И ДЕМОКРАТИЯ

***Алиева Насиба Ислам кызы, Кулиева Тахира Коджа кызы,***
***Адыгезалова Нубубат Низами кызы***

***Резюме***

Статья посвящена проблеме языка и демократия современным подходам к политическому тексту их анализу. Указывается, наряду с лингвистическими свойствами в анализе политических текстов необходимо также учесть их идеологическую базу. Результаты лингвистического анализа показывают, что на самом деле язык и демократия тесно связана на фундаментальном уровне. Политика не может управляться без языка. Он столкнулся с проблемами языка в каждом периоде. Тем не менее, язык сам по себе является нейтральным, ни политической , ни социальной.

## LANGUAGE AND DEMOCRACY

***Aliyeva Nasiba Islam, Kuliyeva Tahira Koca,***
***Adigozalova Nububat Nizami***

***Summary***

The article is devoted to the unity problem of language and democracy, the modern approaches to the political text. It is shown that alongside the linguistical analysis of political text, it is essential to analyze their underlying ideological foundations in speech. Results of linguistic analysis suggest that in fact. Language and democracy are intimately linked at a fundamental level. Politics is the fight with words, in other words, politics can not be managed without language. It has faced language problems in each period. However, the language in itself is neutral, neither political nor social.

***Rəyçi: dos. Əliyeva Zahirə Məşədiələkbər qızı***
***Praktik xarici dillər kafedrasının 05 iyun 2023-cü il tarixli iclasın 13 saylı protokolu***
***Daxil olma tarixi 21 iyun 2023-cü il***